# Alim qızıl medala layiq görülüb

Hidromeliorasiya elminin yorulmaz tədqiqatçısı professor Hamlet Aslanov bu günlərdə "Avropa Nəşr Mətbuat Evi"nin qızıl medalına layiq görülüb.

Mən Hamlet Aslanovla yaşıdam, bir bağçada tərbiyə almış, bir orta məktəbdə oxumuşuq. O, coğrafiya, kimya, biologiya fənlərini daha çox sevirdi. Uşaqlıq illərimiz bir yerdə keçdiyindən Hamlet Aslanovu həm sirdaş, həm dəyərli yoldaş, həm də ziyalı kimi tanıyıram. Həqiqətən o, elm yolunda çox tədqiqatlar aparmış, dəyərli kitablar yazıb üzə çıxarmışdır.

H.Aslanovun yüksək analitik təfəkkürü, elmi yeniliklərə olan marağı və onları qiymətləndirmə bacarığı, təşkilatçılıq istedadı ona hidrologiya, meliorasiya və ekologiya kimi müxtəlif elm sahələrində tədqiqatlar aparmağa və sanballı elmi nəticələr əldə etməyə imkan verib.

Hamlet Aslanov 1950-ci ildə ailəsi ilə birlikdə anadan olduğu və uşaqlığını keçirdiyi qədim Oğuz eli- Qərbi Azərbaycanın Ağbaba mahalından Azərbaycana köçüb. O, 1959-cu ildə Azərbaycan Politexnik İnstitutunun hidromeliorasiya fakültəsinə daxil olub və institutda oxuduğu illərdə təhsildəki müvəffəqiyyətinə, ictimai fəaliyyətinə görə adlı təqaüd alıb. 1963-cü ildə Azərbaycan Həmkarlar İttifaqının XI qurultayına nümayəndə seçilib, elə həmin ildə Azərbaycan tələbə gənclərinin yeganə nümayəndəsi kimi Moskvaya SSRİ Həmkarlar İttifaqının XIII qurultayına nümayəndə göndərilib.

Elmə olan marağı onu hələ tələbəlik illərində professor S.H. Rüstəmovun rəhbərlik etdiyi respublikamızın yerli çayların hidrologiyasının tədqiqi ilə məşğul olan ekspedisiyanın və Azərbaycanın SSRİ Nazirlər Soveti yanındakı Hidrometeoroloji Xidmət İdarəsinin Böyük və Kiçik Qafqaz dağlarının Azərbaycan hissəsindəki çay yataqlarında sel hadisələrini öyrənən ekspedisiyaların iştirakçısı edib. 1965-ci ildə institutu fərqlənmə diplomu ilə bitirərək orada müəllim kimi saxlanılıb. 1966-cı ildə Moskvada Su təsərrüfatı, Kanalizasiya, Hidrotexniki Qurğular və Hidrologiya İnstitutunun aspiranturasına daxil olub, 1970-ci ildə dissertasiya işini müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsi alıb. 1970-75-ci illərdə Azərbaycan Politexnik İnstitutunda, Azərbaycan Memarlıq və İnşaat Universiteti təşkil edildikdən sonra isə burada hidromeliorasiya kafedrasının dosenti vəzifəsini tutub. Onun elmi fəaliyyətini izləyən hər bir ziyalı aydın görə bilər ki, qarşısına qoyduğu məqsədə çatmaq üçün əzablı, əziyyətli yollar keçib, yalnız fədakar əməklə elmin zirvəsinə yüksəlib. H.Aslanov 1998-ci ildə doktorluq dissertasiyası müdafiə edərək kənd təsərrüfatı elmləri doktoru alimlik dərəcəsi alıb. 2002-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası ona professor elmi adı verib. 2003-cü ildə Amerika Hidrologiya İnstitutunun Azərbaycan təmsilçisi, 2004-cü ildə isə səsvermə yolu ilə həmin institutun Sertifikat Şurasının qiyabi üzvi seçilib. 2004-cü ildə Amerika Hidrologiya İnstitutu onu "Peşəkar hidroloq" tituluna layiq görüb.



Onun son illərdə nəşr etdirdiyi böyük həcmli "Meliorasiya torpaqşünaslığı", "Dağlıq ərazilərin torpaqlarının meliorasiyası (rus dilində)" monoqrafiyalarında irəli sürülən müddəalar ölkəmizin dağətəyi və dağlıq ərazilərində əkinaltı torpaqların münbitliyinin qorunması istiqamətində aparılan tədbirlər üçün mühüm əhəmiyyət daşıyır. Milli Elmlər Akademiyasının Eroziya və Suvarma İnstitutunun professoru Hamlet Aslanovun bu yaxınlarda çap edilən "Kürün aşağı axarının ekocoğrafi problemləri" adlı monoqrafiyasına respublikamızın görkəmli alimləri - aqrar elmləri doktoru, professor, əməkdar elm xadimi A.Gərayzadə və geologiya-mineralogiya elmləri doktoru, professor Ə.Əlimov rəy veriblər. Monoqrafiya ekoloji pozuntuları öyrənmək, onların dağıdıcı təsirini azaltmaq və qismən qarşısını almaq üçün əlaqədar təşkilatların apardıqları layihə, axtarış və tikinti işləri üçün yaxşı vəsaitdir.

Son dərəcə sadə, səmimi və təvəzökar insan olan H.Aslanov yüksək etikası, mədəniyyəti ilə ilk baxışda müsahibində özünə qarşı xoş təəssürat yaradır. Rəhbərlik etdiyi çoxsaylı aspirant, dissertant və doktorantlara qayğıkeşliklə yanaşır, çalışır ki, onlar vaxtında elmi işlərini müdafiə edib xalqın yaradıcı insanlarının cərgəsində fəaliyyət göstərsinlər. O, respublikamızda və xaricdə (Rusiya, ABŞ, İran) dərc olunan 200-ə yaxın elmi işin, o cümlədən 15-dən artıq dərslik, monoqrafiya və kitabın müəllifidir.

Alimin ali məktəbdə 50 illik pedaqoji fəaliyyəti dövründə yetişdirdiyi yüzlərlə mütəxəssis hazırda respublikamızda, yaxın və uzaq xarici ölkələrdə elmin və təsərrüfatın müxtəlif sahələrində çalışırlar.

Aldığı yüksək mükafat münasibətilə alimi ürəkdən təbrik edir, ona fəaliyyətində yeni uğurlar arzulayırıq.

**Hacı Tofiq SEYİDZADƏ**